# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ TƏBRİZLİ QONAQLARLA GÖRÜŞÜ



İranın Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyəti Təbrizlə qardaşlaşan Gəncə şəhərində səfərdə olarkən Təbriz Tibb Universitetinin rektoru professor Məhəmməd Hüseyn Somi və İran Xarici İşlər Nazirliyinin məsul şəxsi İsmayıl Babayi ilə Gəncə Dövlət Universitetinin əməkdaşları arasında görüş keçirilmişdir.

Universitetin rektoru professor Yusif Yusibov qonaqlara ilk öncə iki dövlətin tarixi yaxınlığı, iqtisadi-siyasi əlaqələrin daha da möhkəmlənməsi, Təbrizin isə xalqımız üçün nə dərəcədə əziz bir şəhər olmasını nəzərə çatdırmaqla yanaşı, Gəncə Dövlət Universitetinin yaranma tarixi, bugünkü maddi-texniki təchizatı, xarici dövlətlərin universitetləri ilə əlaqələri haqqında qısa məlumat verdi.

Professor Məhəmməd Somi görüş iştirakçılarını rektor olduğu Tibb Universiteti haqqında məlumatlandırdı. Gəncədə isə birinci dəfə olduğunu deməklə bərabər, dahi Nizami ilə bağlı olan bu şəhərə sonsuz istəyini xüsusilə vurğuladı. Professor hər iki universitet arasında əməkdaşlığın yaranmasına, ilk növbədə tələbə-müəllim mübadiləsinə hazır olduğunu, bu əlaqənin iki dövlətdə yaşayan bir xalqın daha da inkişafına təkan verəcəyini bildirdi.

Gəncə Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi Xəlil Yusifli qonaqları səmimi sözlərlə salamlayıb, fars dilində yazmış şairlərin Azərbaycan dilinə tərcümə etdiyi və nəşr olunmuş kitablarını onlara hədiyyə verdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**